Ədalət.- 2021.- 2 fevral. S. 5.

# VƏTƏN SİZƏ OĞUL DEDİ



***XTQ giziri Qasımov Mirağa***

XTQ giziri Qasımov Mirağa Hafiz oğlu 11.05.1998-ci ildə Cəlilabad rayonu Moranlı kəndində anadan olub. Mirağa Vətən müharibəsində igidliklə döyüşərək qəhrəmancasına Şəhid olub.

Gizir Mirağa Qasımov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları və "Qarabağ Ordeni" ilə təltif edilib.

***Vətən müharibəsində igidliklə qəhrəmancasına şəhid olub***



Heydərov Qadir Ədalət oğlu 11.05.1998-ci ildə Cəlilabad rayonu Əsədli kəndində anadan olub. Qadir Vətən müharibəsində igidliklə döyüşərək 30.10.2020-ci il tarixində qəhrəmancasına Şəhid olub.

Qadir Heydərov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif edilib.

***MAXE Fətəliyev Rahib***




MAXE Fətəliyev Rahib Pənah oğlu 10.07.1978-ci ildə Beyləqan rayonu Bolsulu kəndində anadan olub.

2016-cı ilin aprel döyüşləri iştirakçısı Rahib Vətən müharibəsində igidliklə döyüşərək 05.12.2020-ci il tarixində Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

MAXE Rahib Fətəliyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" medalı ilə təltif edilib.

***Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***

Gizir Şükürov Alim Davud oğlu 23.05.1998-ci ildə Cəlilabad rayonu Ağdaş kəndində anadan olub. Vətən müharibəsində igidliklə döyüşən Alim 07.11.2020-ci il tarixində Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.



Gizir Alim Şükürov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Söyüşdə fərqlənməyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



MAXE Bədirov Murad Qismət oğlu 25.01.2001-ci ildə Cəlilabad rayonu Kazımabad kəndində anadan olub. Vətən müharibəsində igidliklə döyüşən Murad 29.10.2020-ci il tarixində Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

MAXE Murad Bədirov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda medalı ilə təltif edilib.

***Oğlu doğulandan 10 gün sonra şəhid xəbəri gəldi***



Vətən müharibəsində itkin düşən daha bir hərbçimizin şəhid olduğu müəyyənləşib.

1991-ci il təvəllüdlü baş leytenant Babayev Ramil Taqət oğlundan gedir. Kürdəmirin Şilyan kəndində anadan olan şəhid zabitimizin nəşi Murovdağ istiqamətində tapılıb. Nəşin Ramil Babayevə aid olması DNT analizi nəticəsində müəyyənləşib. Şəhidimiz bu gün Kürdəmirin Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Ailəsi sonuncu dəfə Ramillə sentyabrın 29-da əlaqə saxlaya bilib. Həmin tarixdən sonra zabitlə əlaqə saxlamaq mümkün olmayıb. O, Goronboyda N saylı hərbi hissənin kəşfiyyat bölüyündə xidmət edib. Baş leytenant Ramil Babayev Aprel döyüşlərinin də iştirakçısı olub.

Ailəli idi, iki yaşında bir qızı və on gün öncə dünyaya gələn bir oğlu var.